# SƏTƏM SİYASƏTİ

**Xidmət sahəsi:** SGC şirkəti yaşayış və qeyri-yaşayış binalarının tikintisi, mövcud obyektlərin təmiri və yenidənqurulması, beton işləri, bünövrə hazırlığı, daxili və xarici mühəndislik sistemlərinin quraşdırılması və texniki dəstəyi ilə məşğuldur. Bundan əlavə, ventilyasiya, isitmə-soyutma sistemlərinin qurulması, sənaye obyektlərində xüsusi avadanlıqların quraşdırılması, boya, qumlama və fasad işlərinin subpodratçılar vasitəsilə icrası da işlərimizə daxildir. Həyata keçirilən bütün layihələr keyfiyyət, təhlükəsizlik və ekoloji standartlara tam uyğun olaraq icra edilir.

**Bizim öhdəliklərimiz**: SGC sağlamlıq, təhlükəsizlik və ətraf mühitin yüksək səviyyədə qorunmasına nail olmaq üçün bütün tətbiq olunan qanunlara, standartlara, müştərilərin ehtiyaclarına, gözləntilərinə və müvafiq tələblərinə riayət etməyə borcludur. Bütün proseslər ISO 45001:2018 beynəlxalq standartlarına cavab verən sənədləşdirilmiş İdarəetmə Sistemi əsasında strukturlaşdırılmışdır.

Aşağıda göstərilən prinsip və metodları fəaliyyətimizə tətbiq etməyi öhdəliyimizə götürürük:

- **Sağlamlıq, Təhlükəsizlik və Ətraf Mühitin Mühafizəsi**: Bu, şirkətin bütün işçiləri və ictimaiyyətin üzvlərinin başına gələ biləcək mümkün qəza, hadisə, xəsarət və xəstəliklərin qarşısını almaq məqsədini daşıyır. İdarə heyəti ətraf mühitin qorunması, bütün personalın təhlükəsizliyi, sağlamlığı və rifahı ilə bağlı məsuliyyətlərini bilir. Təşkilat ətraf mühitə dəyə biləcək təsirlərin və hər hansı çirklənmənin qarşısını almağı hədəfə alır.

- **Davamlı inkişaf:** Biz idarəetmə heyətinin və işçilərin öhdəçiliyi və iştirakı ilə inteqrasiya olunmuş idarəetmə sisteminin davamlı inkişafını təmin edəcəyik.

- **Məqsəd və hədəflər:** SGC SƏTƏMM ilə əlaqədar məsələləri müəyyən edəcək və rəhbərlik tərəfindən hər il fəaliyyət nəzərdən keçiriləcək və nail olmaq üçün hədəflər təyin ediləcəkdir. İşçilər üçün təlimlərin keçirilməsi məqsədlərə nail olmaq üçün strategiyanın tərkib hissəsi olacaqdır.

- **Resurslar:** Planlaşdırılan məqsədlərə və hədəflərə nail olmaq üçün şirkətin rəhbərliyi tərəfindən intellektual, maliyyə, informasiya və digər bütün zəruri resurslar təmin ediləcəkdir.

- **Maraqlı tərəflər:** SGC heyəti, müştərilər, tədarükçülər, partnyor və digər maraqlı tərəflər bizim üçün önəmlidir. İşçilərin və digər əlaqəli şəxslərin təhlükəsizliyini təmin etmək üçün bütün lazımi tədbirləri görəcəyik**.**

- **Xarici və daxili məsələlər:** Fəaliyyətlərdə dəyişikliklər, iş şəraiti, müştəri tələbləri, maraqlı tərəflərin yeni gözləntiləri, işçilərin mənəviyyatı və s. kimi insanların və ətraf mühitin təhlükəsizliyinə təsir göstərə biləcək məsələlər hər zaman nəzərdən keçiriləcəkdir.

- **Risklərin idarə olunması:** SGC təşkilatımızın fəaliyyətlərinə birbaşa və ya dolayısı ilə təsir edə biləcək sağlamlıq, təhlükəsizlik və ətraf mühitlə bağlı bütün risklərin qiymətləndirilməsi, mövcud təhlükələrin müəyyənləşdirilməsi və tətbiq olunan effektiv nəzarət tədbirlərinin təmin edilməsi üçün risk əsaslı idarəetməni təmin edir.

- **Məsuliyyət:** Hər bir işçinin vəzifəsi SGC SƏTƏMM siyasətinin tələblərinə riayət etmək və iş yerinin mümkün qədər təhlükəsiz olmasını təmin etmək üçün rəhbərliklə əməkdaşlıq etməkdir. İşçilər əməliyyatların təhlükəsizliyinə təsir göstərə biləcək hər hansı bir narahatlıq barədə rəhbərliyə məlumat verməlidirlər. Bu siyasətə və ya digər təhlükəsizlik tələblərinə riayət etməyən hər hansı bir işçi məsuliyyət daşıyır. **Direktor** şirkət daxilində Təhlükəsizlik üçün ümumilikdə məsuliyyət daşıyır və siyasətin effektivliyinə nəzarət edir.

- **Kommunikasiya:** İşçilər SƏTƏMM Siyasətinin tələbləri barədə hər zaman məlumatlandırılacaq. İşimizə qanuni maraq göstərən istənilən maraqlı tərəfləri və müştəriləri cəlb etmək üçün bu Siyasət veb saytımızda təqdim olunur.